


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 139 (24.276)

4 avqust 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik




## Prezident İlham Əliyev İtaliyanın “Leonardo” şirkətinin direktorlar şurasının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də İtaliyanın “Leonardo” şirkətinin direktorlar şurasının sədri Stefano Pontekorvonu qəbul edib.

Stefano Pontekorvo İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni və müdafiə naziri Quido Krosettonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Nazirlər Şurasının Sədrinə və müdafiə nazirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla İtaliya arasında səmərəli tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, hərbi və mülki sahələrdə dünyanın ən qabaqcıl şirkətlərindən biri olan “Leonardo” şirkəti ilə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, İtaliyanın müdafiə məhsulları istehsal edən ən böyük şirkəti olan “Leonardo”nun mülki sektorda da maraqlı texnologiyaları, o cümlədən “Smart city” texnologiyası, süni peyk istehsalı və aerokosmik xidmətlər, böyük şəhərlərin nəqliyyat sistemlərinin idarəedilməsi də var. Şirkətin rəhbər şəxsləri bu sahələrdə də ölkəmizə faydalı ola biləcək əməkdaşlıqla bağlı təşəbbüslərini ifadə etdilər.

## Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.

Dövlətimizin başçısı bu yaxınlarda ABŞ Dövlət katibi Antoni Blinkenlə keçirdiyi telefon söhbəti zamanı qaldırılmış məsələlər ətrafında fikir mübadiləsini davam etdirdi. Prezident İlham Əliyev Azərbaycan tərəfinin sülh prosesini davam etdirmək əzmini bir daha təsdiqlədi və tezliklə danışıqlar çərçivəsində müzakirə olunan əsas istiqamətlər üzrə nəticələrin əldə ediləcəyinə ümidvar olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**



## Zəfər yolu...

## Şəhidlərimizin hərbi zəfərinin müqəddəs izləri yaşayan Zəfər Yolu Azərbaycanı daha böyük qələbələrə, zirvələrə yüksəldəcək diplomatik Zəfər Yoluna çevrilib




İstisnasız demək olar ki, müasir müstəqil Azərbaycanın bugünkü hərbi, iqtisadi, diplomatik zəfərlərində informasiya cəbhəsində uzunmüddətli və gərgin, lakin düzgün və mərhələli şəkildə hədəflənmiş informasiya mübarizəsi müstəsna rol oynamışdır. Özü də bu mübarizədəki qələbəmiz güclü anti-Azərbaycan siyasi proseslərinin sərt axınına sinə gərərək, güclü müqavimət göstərilməklə qazanılmışdır. Digər zəfərlərimizin də başında duran ölkə başçımız cənab İlham Əliyev Vətən müharibəsinin ilk günlərindən etibarən adını informasiya müharibəsinin qalib sərkərdəsi kimi də tarixə yazdı. Xalqın, ölkənin, dünyanın müharibə dövründəki hərbi informasiya təminatını öz üzərinə götürən dövlətimizin başçısı özünün rəsmi “Twitter” hesabındakı paylaşımları ilə xalqımızı ard-arda qələbə xəbərləri ilə şəxsən müjdələməyi, xalqımızın göz qırpmadan, nəfəs dərmədən gözlədiyi xalqa müraciətləri bu gün Şanlı Zəfərimizin qürur səhifələri kimi tariximizə əbədi həkk olub. Bu, bir milli qürur və heysiyyət məsələsi olmaqla yanaşı, həm də dövlət başçımızın böyük siyasi xadim kimi informasiya dəqiqliyi, etibarlılığı məsuliyyətini də aydın dərk etməsindən irəli gəlirdi. Ölkə başçısının Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumuna verdiyi geniş müsahibələr reallıqların dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz rol oynadı, qəsdən təhrif olunmuş tariximizin üzə çıxarılmasında ən güclü silaha, siyasi qələbəmizin təminatçısına çevrildi. Ölkə rəhbərimiz bu müsahibələrdə acımızı acısı, qürurumuzu qüruru bilən qardaş Türkiyə mediasına nə qədər munis, doğma, qürurdan doğan qəhər dolu kövrək anlar yaşayacaq qədər səmimi idisə, konkret olaraq anti-Azərbaycan siyasətinə xidmət edən, öyrədilmiş, hakim iddiası ilə psixoloji təsir göstərmək istəyən bəzi dünya media mənsublarına isə bir o qədər sərt, kəsərli, qətiyyətli mövqe nümayiş etdirirdi. Siyasi-diplomatik zəfərin əsas açarı olan informasiya təminatlılığına nail olmaq, demokratik cəmiyyətdə fikir, söz azadlığı prosesinin qarantı rolunda çıxış etmək postmüharibə dövründə də Azərbaycanın dövlət siyasətinin zəminində dayanır. Elə iyulun 21-də açılış mərasimi olan, “Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda keçirilən Şuşa Qlobal Media Forumu da öz möhtəşəmliyi, əhəmiyyətliliyi ilə tarixə düşməklə bu siyasətin növbəti uğuru oldu. Məqsəd isə cənab Prezidentin də bəyan etdiyi kimi bəlli idi: burada toplaşan beynəlxalq media nümayəndələrinin hər şeyi öz gözləri ilə görüb Azərbaycan həqiqətlərini öz ölkələrinə, öz ölkələrinin nümayəndələrinə, ictimaiyyətinə olduğu kimi çatdırması.

### *İnformasiya cəbhəsinin qalib sərkərdəsi*

Forumda 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, 60 yerli media rəhbəri və nümayəndəsinin iştirakı bu tədbirin genişmiqyaslı olduğunu bir daha təsdiq edir. Prezident cənab İlham Əliyevin Forumun açılış mərasimində iştirak edib sualları cavablandırması isə bu tədbirə xüsusi siyasi çəki-dəyər verdi. İlk olaraq onu qeyd etmək yerinə düşər ki, belə bir genişmiqyaslı, çoxşaxəli və qlobal əhəmiyyətli tədbirin möhtəşəm şəkildə, yüksək səviyyədə təşkilində ötən il Milli Mətbuat Günündə Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən Azərbaycanın media nümayəndələrinin birinci Forumu baş məşq rolunu oynamışdır. Dövlət başçımız özü də qeyd etdiyi kimi gələn dəfə bu tədbiri beynəlxalq Forum səviyyəsində təşkil etmək göstərişi verməklə bu mühüm tədbirin ideya təşəbbüskarı özü olmuşdu. Heç şübhəsiz ki, Azərbaycanın dünya ictimai mühitinə bu qədər açıq, informasiya təminatına, mübadiləsinə bu qədər maraqlı olması, həqiqətən də, ədalətli tərəf olmasından, həqiqətpərəstliyindən, öz torpaqlarına sahiblənmək haqqını, sülh, quruculuq və inkişaf siyasətini bəyan etmək, siyasi-iqtisadi qüdrətini sərgiləmək qürurundan irəli gəlir. Erməni vandalları isə torpaqlarımızı 30 il işğal altında saxladıqları zaman ifşa olunmaq qorxusu ilə, öz vandallıq, barbarlıq, terrorçu xislətlərini örtbasdır etmək məqsədilə buranı qadağan edilmiş zonaya çevirmiş və ya yalnız öz siyasi məqsədlərinə yarayan, Azərbaycan əleyhinə sifarişli dezinformasiya ilə məşğul olacaq tək-tük xarici jurnalisti işğal etdikləri ərazilərimizə buraxmışdılar. Azərbaycan isə ekspertlər, sahibkarlar və media nümayəndələrinin də iştirakı ilə keçirilən bu beynəlxalq tədbirlə öz sülhsevər və tərəqqi missiyasını bir daha sübut etdi.

Cənab Prezidentin geniş çıxış etməkdən məqsədyönlü şəkildə imtina edib stereotipləri aşaraq polemikaya, diskussiyaya üstünlük verməsi də bir moderncilik, novatorluq, siyasi iradə nümayişi idi. Bir ölkə başçısının 3 saat ərzində xarici dildə, siyasi məntiqə söykənən sərrast natiqliklə, labirintləri uğurlu diplomatik gedişlərlə aşmaq yolu ilə geniş auditoriyanın suallarını cavablandırması müasir dünya siyasət tarixində nadir hadisə idi. Prezidentin giriş nitqi konkret, lakonik olmaqla həm də nüfuzedici, hədəfləyici və auditoriyanı mövzu və ideyaya siyasi-məntiqi kökləyən bir çıxış idi. Eyni zamanda hər suala cavab o qədər dərin, təfərrüatlı, məzmunlu idi ki, onların hər biri tarixi nitq xarakterli olmaqla böyük siyasətin ayrı-ayrı traktatlarını, güclü diplomatiyanın konseptual zərrələrini təşkil edirdi. Bu, Azərbaycana dinamik iqtisadi yüksəliş, pozulmaz ictimai-siyasi sabitlik, müdafiə və strateji uğurlar gətirən siyasi, inzibati və xarici siyasətin təntənəsi idi.

Prezidentimiz doğma Qarabağımızın, Azərbaycanın baş tacı olan Şuşamızın tarixi, ermənilərin Qarabağda aborigen deyil, gəlmə olmaları, Zəfər Tariximiz haqqında dərin biliklərə, fundamental fakt və müqayisələrə əsaslanan tarix dərsi keçdi. Heç şübhəsiz ki, bu dərs nəinki şüuraltı yaddaşlardan silinəcək, hətta həqiqət qığılcımları kimi Azərbaycan dünyasını aydınladan yeni məşəllərin alovlanmasına rəvac verəcək. Ölkə başçımızın hərb mədəniyyətindən keçdiyi dərslər də unudulmazdır. Azərbaycanın öz ərazi bütövlüyünü, tarixi ədaləti necə bərpa etməsindən, qələbəni döyüş meydanında qəhrəmanlıqla qazanmasından danışarkən nə qədər qürur yaşayırsa, erməni vandalizminin, kin və nifrətinin insanlığa sığmayan bəşəri faciə olmasından, Ermənistanın müharibə sonrası revanşist addımlarından, nə qədər ibrət dərsi xarakterli mesajlar almasına baxmayaraq, yeganə çıxış yolu olan sülhə boyun əyməkdən qaçmasından ürəkağrıdıcı təəssüf hissi ilə bəhs edir. Eyni zamanda Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi – Böyük QAYIDIŞ Proqramı, təxminən, növbəti üç il ərzində 150 mindən çox insanın öz ata-baba yurdlarına qaytarılacağı, beş il ərzində azad edilmiş bütün şəhərlərdə insanların yaşayacağı, Şuşanın 3-4 il ərzində təkcə Azərbaycanın və Qafqazın deyil, dünyanın ən gözəl şəhərinə çevriləcəyi haqqında, müharibədən çıxmış ölkə olmasına baxmayaraq, Azərbaycanın bütün bunların öhdəsindən təkbaşına gəldiyindən

*Ardı 2-ci səhifədə*

necə böyük şövqlə danışması milliyyətindən, hansı ölkəyə mənsub olmasından asılı olmayaraq, hər kəsdə dərin təəssürat buraxdı. Dünya bu qətiyyət və iradəni də bir daha gördü ki, ***“Zəngəzur dəhlizini heç kim ləğv etməyib, bu layihə gündəlikdə qalmaqdadır və həyata keçirilməyənədək gündəlikdə qalacaq”.***

Təsadüfi deyil ki, Azərbaycan lider dövlət kimi Cənubi Qafqazda vəziyyəti sabitləşdirmək, dayanıqlı sülhə nail olmaq, Cənubi Qafqazda vəziyyəti sağlamlaşdıraraq və Cənubi Qafqazı yüksək risk zonasından çıxarmaq iddiasındadır. Çünki ***“Azərbaycanda siyasi proseslər düzgün istiqamətdə gedir. Cəmiyyətdə gələcəyimizin əsas məsələləri üzrə konsensus var, həmrəylik var – istər siyasi, istər iqtisadi inkişaf olsun, yaxud da ki, sosial siyasətlə bağlı məsələlər olsun”.*** Və artıq dünya da bu reallığı bütün təfərrüatı ilə qəbul edir: ***“Ölkə daxilində heç bir təhlükə yoxdur, ölkədə sabitlik hökm sürür, cəmiyyətdə həmrəylik səviyyəsi həmişəkindən yüksəkdir, ölkənin iqtisadi inkişafı heyranedici şəkildə gedir. Azərbaycan iqtisadiyyatı özünü təmin edir. Biz öz resurslarımız hesabına özümüzü təmin edirik və yaxşı idarəetmə həyata keçiririk”.***

### *Siyasi dialoq mədəniyyəti*

Ölkə başçımız Azərbaycan xalqının və dövlətinin ayrı-ayrı ölkələrə, media qurumlarına, şəxslərə siyasi simpatiyasını da açıq şəkildə nümayiş etdirdi, milli maraqlarımıza və siyasi mənafeyimizə tuş gələn sualları dəyərləndirməkdə də qətiyyət göstərdi. Məsələn, Türkiyənin beynəlxalq xəbər yayımında aparıcı xəbər kanallarından olan “TRT World”un müxbirinin sualı müqabilində gələcəkdə Türkiyə və Azərbaycanın regionda daha önəmli rol oynayacağından, mövcud potensialdan istifadə etməklə iki qardaş ölkəni daha da yaxınlaşdırmaq məqsədindən böyük həvəs və coşqu ilə danışan Prezident cənab İlham Əliyevin ABŞ-dan olan jurnalistin Azərbaycana qarşı olan təhlükələrlə bağlı sualına daha aydın əks-reaksiyasını görürük. Onun ***“…torpaqlarımızı azad edəndən sonra biz ölkəmizə qarşı potensial təhlükə görmürük. …hazırda xaricdən qaynaqlanan təhlükə səviyyəsi o qədər də yüksək deyil. Yəqin, bu ona görədir ki, biz həmin təhlükənin öhdəsindən gələ bilirik”*** kimi qətiyyətli və kəsərli cavabı müstəqil dövlətin siyasi iradə və əzmkarlığını dünyaya sərgiləyir.

Müsahibədə Rusiyanın TASS İnformasiya Agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmana Azərbaycan həqiqətlərinin fəal təbliğatçısı, obyektivlik etalonu kimi simpatiyasından irəli gələn səmimiyyət və doğmalıq duyulur. Sualları 3 saat ərzində ingilis dilində sərrast şəkildə cavablandıran bir liderin Qusmanın suala Azərbaycan dilində başladığını nəzərə alaraq ona nümayişkarənə şəkildə ikinci sualı da dərhal vermək şansı yaratması isə ölkə başçımızın milli dəyərlərinə yüksək ehtiram örnəyidir. Dövlət başçımız rusiyalı hərbi ekspert İqor Korotçenkoya Azərbaycan dövləti tərəfindən görülən işlərə və ölkəmizin özünü hansı mövqedə nümayiş etdirməsinə verdiyi real qiymətə görə təşəkkürünü bildirdi, bununla da Azərbaycansevərə, həqiqətsevərə etik siyasi jest etmiş oldu. Eyni zamanda İqor Korotçenkonun “Azərbaycanın gələcəyinin strateji baxışı Sizin əllərinizdədir, Siz Azərbaycanın gələcəyini necə görürsünüz?” sualını daha geniş cavablandırmaq üçün ayrıca bir müsahibə təklifi ilə də çıxış etdi. Siyasi liderimiz Yaxın Şərq Xəbər Agentliyindən olan misirli jurnalistin ermənilərin mina terroru kimi müharibə cinayəti ilə Azərbaycanı sülh dövrünün müharibəsi kimi acı reallıq qarşısında qoyması istiqamətində sualını ***“Bəli, siz ən vacib məsələyə toxundunuz”,*** – deyə təqdir etməklə Forumun sonrakı gedişini Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə daha obyektiv və dəqiq çatdırmaq, daha problem mövzulara toxunmaq məcrasına yönəltdi.

### *Beynəlxalq media üçün böyük siyasi təcrübədən irəli gələn peşəkarlıq dərsləri*

Prezident cənab İlham Əliyev qlobal media proseslərini zəngin siyasi təcrübəyə söykənərək belə təhlil etdi: ***“Qabaqcıl texnologiyaların və rəqəmsallaşmanın geniş şəkildə tətbiqi ilə media mənzərəsi sürətlə inkişaf edir. Bu həm yerli, həm də beynəlxalq media orqanları tərəfindən biznes modellərinin yenidən təsəvvür edilməsinə təkan verir. Azərbaycanda davam edən media islahatları medianın müasir standartlara uyğunlaşdırılmasına və qlobal tələblərə cavab verən kreativ ideyaların təşviqinə yol açıb”.*** Siyasi liderimizin milli jurnalistikanın fəaliyyətini “4-cü Sənaye İnqilabı dövründə Yeni Media”nın qarşısında duran vəzifələr kontekstində təhlil və qiymətləndirməsi də maraqlıdır. ***“Azərbaycan mediasının bu sahədəki fəaliyyəti*** (beynəlxalq hüququn, ərazi bütövlüyümüzün bərpası, informasiya cəbhəsində mübarizə – M.S.)***, o cümlədən ona görə qiymətlidir ki, dünya ictimaiyyətinə təkcə beynəlxalq hüquq prizmasından yox, ümumi insani prizmadan üzləşdiyimiz problemi çatdırmaq üçün bizim birinci vasitəmiz media olmuşdur”.*** Prezident media tərəfindən bu məsələnin daim gündəlikdə saxlanmasını, sonrakı mərhələdə daha çox beynəlxalq auditoriyaya çıxış etməyə başlamasını, yüksək qiymətləndirməklə yanaşı, milli jurnalistikaya prioritet istiqamətlərlə də bağlı çağırış edir: ***“Bu gün isə biz yenə də öz həqiqətlərimizi sübut etməyə məhkumuq. Çünki bizə qarşı bu gün yenə də kampaniya davam edir. Bizim Qələbəmizi həzm edə bilməyən, uğurlarımıza qısqanclıqla yanaşan, bizə qarşı açıq informasiya savaşına çıxanlara biz tutarlı, real arqumentlərlə cavab verməliyik və veririk. Məhz bunun nəticəsidir ki, bu gün bütün bu iftiralara, böhtanlara, yalanlara baxmayaraq, Azərbaycanın sözü, Azərbaycan xalqının, dövlətinin haqlı səsi eşidilir və bunun əsas aləti bizim media resurslarımızdır. Ona görə cəmiyyətdə mövcud olan həmrəylik və birlik, bax, bu üstünlüyü bizə təmin edir”.*** Eyni zamanda söz, mətbuat azadlığı, fikir plürializmi kimi dövlət media siyasətinin mənsublusu kimi mediaya hər hansı tövsiyədən uzaq olduğunu, Azərbaycan mediasının müstəqilliyinin Azərbaycan cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biri olduğunu bəyan edir. ***“Mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir və xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni bu, yenə də media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir”*** deyərək media nümayəndələrinə ***“ancaq belə də davam edin”*** deyərək peşəkarlıq, milli mənsubiyyətlilik məsuliyyəti təlqin edir. ***“Həm sosial media, həm ənənəvi KİV-lər mənə kömək edir ki, məsələlərdən xəbərdar olum və ona dərhal reaksiya verim”,*** – deyən dövlət başçımız ölkəmizdə ədalətsizlik, bürokratiya, pis idarəçilik və ya digər mənfi hallarla daha çevik mübarizədə, bir sözlə, cəmiyyətin nəbzini tutmaqda sosial medianın əhəmiyyətindən danışdı, ölkə başçısı kimi fərqli kommunikasiya kanallarından birinin də sosial media olmasını, doğmaları, ətrafı vasitəsilə də burada baş verənlərdən müntəzəm məlumatlanmasını söylədi. Bu, ölkədə məmur özbaşınalığına, qanun pozuntusuna qarşı medianın ictimai nəzarət funksiyasına, “dördüncü hakimiyyət” səlahiyyətliliyinə dövlət dəstəyi olmaqla, həm də xüsusilə sosial medianın məsuliyyət yükünü, yalan, qərəz, iftira və böhtandan qaçmaq məcburiyyətini artırır.

Prezident cənab İlham Əliyev Rusiya kütləvi informasiya vasitələrində Azərbaycana münasibətdə və Azərbaycan kütləvi informasiya vasitələrində Rusiyaya münasibətdə görünən kiçik nahamarlıqların Azərbaycan və Rusiyanın siyasətinə heç bir təsir göstərmədiyini vurğulamaqla media nümayəndələrinin öz qiymətləndirmələrində tam sərbəst olduqlarını, müxtəlif qiymətləndirmələrə, müxtəlif təhlillərə və müxtəlif rəylərə qaçılmaz reallıq kimi yanaşdığını, lakin belə məqamların Azərbaycan rəhbərliyinin siyasi iradəsinə təsir etmədiyini demokratik fikirli siyasi xadim səriştəsi ilə bildirir. İranın İRNA Agentliyinin Azərbaycanda “İRNA Azəri” bürosunu açmaq niyyətinə isə yalnız məsuliyyətli KİV qonşu ölkələr arasında münasibətlərin güclənməsinə müsbət təsir göstərə bilər tendensiyasından yanaşır, dövlət başçısı kimi gözləntilərini dilə gətirir: ***“Düşünürəm ki, ən yaxşı üsul İrandakı auditoriyanızı Azərbaycandakı reallıqlar, Qarabağın və Şərqi Zəngəzurun bərpa prosesi haqqında məlumatlandırmaqdır. Əlbəttə, yaxşı olardı ki, İranda daha çox insan İkinci Qarabağ müharibəsi və postmüharibə vəziyyəti, ələlxüsus, Azərbaycanın daha geniş regional əməkdaşlıq gündəliyi haqqında məlumatlı olsun”.***

### *İldırım sürətli effekt*

Forumun mühüm cəhətlərindən biri də o idi ki, müsahibədə səsləndirilən “cənab Prezident, Siz öz çıxışınızda qeyd etdiniz ki, dünya təlatümlüdür, hər şey çox sürətlə dəyişir və bu fonda Azərbaycan uğura nail olur. O, qaya kimi dayanıb. Bir çox ölkə üçün Azərbaycan bu gün ən müxtəlif problemlərin həllinin örnəyidir”, “Mən təkcə siyasi xadimə deyil, həm də qalib gələn bir şəxsə sual verirəm: – Siz çox təcrübəli şəxssiniz”, “Siz döyüş meydanında Qələbədən sonra indi bərpa və yenidənqurma işlərində də qələbə çalırsınız” fikirlərinin səsləndirilməsi idi. Bu, qalib və inkişaf edən ölkəmizin, dövlətimizin rəhbərinin bu gün dünya siyasətçiləri, ictimai fikir daşıyıcıları arasında xüsusi nüfuza və çəkiyə malik olduğunu bir daha təsdiq etdi. Forumun açılış mərasiminin yekununda isə dövlət başçımızın qeyri-adi siyasi xarizmasından, diplomatik, milli iradəsindən, səmimiyyətindən irəli gələn pərəstiş özünü açıq-aydın göstərdi. Hər kəs bu siyasi xadimlə daha yaxın təmasda olmağa, canlı ünsiyyət qurmağa, bu tarixi selfi ilə əbədiləşdirməyə can atırdı.

Forum qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərin müzakirəsi, dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələlərin müzakirəsi baxımından yaddaqalan oldu. Dünya mediasının təbirincə desək, dünyanın media liderləri arasında ilhamverici birlik missiyasını həyata keçirdi. Ölkə başçımız Forum çərçivəsində Qoşulmama Hərəkatının Media platformasının yaradılması təşəbbüsünü yüksək dəyərləndirdi. Eyni zamanda maraqlı ideyalar, istiqamətlər baxımından əhəmiyyətliliyi nəzərə alınaraq Forumun müntəzəm olaraq keçirilməsi və buna birinci Şuşa Qlobal Media Forumu adı verilməsi təşəbbüsünü irəli sürdü. Forum çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə üç xarici informasiya agentliyi – Albaniyanın ATA, Bolqarıstanın BTA və Filippinin PNA informasiya agentlikləri arasında əməkdaşlıq haqqında müqavilələr imzalandı. Avropanın aparıcı informasiya agentliklərini özündə birləşdirən, Mərkəzi Avropanın aparıcı informasiya tədarükçülərini bir araya gətirmək məqsədi daşıyan “Central Europe Report” *(www.cereport.eu)* layihəsi, Trend Beynəlxalq İnformasiya Agentliyi ilə Türkiyənin Demirören İnformasiya Agentliyinin birgə layihəsi olan *“www.dhapress.com”*un təqdimatları oldu. Televiziya jurnalistləri üçün “Hərbi jurnalistika” mövzusunda təlim, yerli fotoqraflar üçün ustad dərsi keçildi. Bütün bunlar milli jurnalistikanın dünyaya inteqrasiyası, müasir media çağırışlarına qoşularaq dövrün tələblərinə cavab verməsi, beynəlxalq təcrübə əsasında inkişafa nail olması baxımından mühüm əhəmiyyət kəsb etdi.

Qlobal Media Forumunun öz məqsəd və hədəflərinə uğurla çatmasını bir daha ondan aydın görmək olar ki, qarayaxa Ermənistan hökuməti ilk gündən etibarən boykot və təhdid kampaniyasına başlamışdı. Forumdakı Azərbaycan reallıqları və erməni vəhşətinin ifşası ilə bağlı faktların tirajlanmasından təşfişə düşən Ermənistan bu mötəbər tədbirdə iştirak etmiş yüksək səviyyəli ekspertlər, beynəlxalq ictimai rəydə nüfuza malik olan jurnalistlər haqqında sosial şəbəkələrdə qarayaxma və nifrət kampaniyası aparmaqla heç bir beynəlxalq hüquq normalarına sığmayan mövqe sərgiləyirlər. Lakin bu, bir reallıqdır ki, Azərbaycan həqiqətlərinin carçısına çevrilən Forum dünya mediasını qısa zamanda “işğal etdi”. Belə ki, Avropanın ən yüksək tamaşaçı reytinqinə malik “Euronews” telekanalı, qardaş Türkiyənin əksər kütləvi informasiya vasitələri, ABŞ-ın “The Associated Press” agentliyi və “New York Insider” xəbər portalı, Birləşmiş Krallığın “Daily Trends” qəzeti, Pakistanın “DND” xəbər portalı, rəsmi “Associated Press of Pakistan” agentliyi, Rusiyanın rəsmi TASS agentliyi, habelə “Vestnik Kavkaza” xəbər portalı, Misirin və digər ölkələrin nüfuzlu KİV-ləri forumu ictimai-siyasi baxımdan mühüm əhəmiyyət kəsb edən bir tədbir kimi təqdim etdi. Bu informasiyalarda Azərbaycanın regiondakı təhlükəsizlik məsələlərini, sülh prosesini nizamlamaqda siyasi qətiyyətə malik olması, uğurlu enerji diplomatiyası həyata keçirməsi, qlobal təhlükəsizlik məsələlərini öhdəsindən səriştəliliklə gəlməsi, Azərbaycanın hərtərəfli inkişafı təqdim olunurdu. “İdeyadan ideya doğar”, “Uğur uğur gətirər” aksiomasının bir əyani sübutu da Prezident cənab İlham Əliyevin iyulun 22-də “China Global Television Network” televiziya kanalında növbəti müsahibəsinin yayınlanması, iyulun 22-də Şuşada “Euronews” televiziyasına müsahibə verməsi oldu.

*Dövlət başçımızın da Forumda qürurla bəyan etdiyi kimi, Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, bizim Qələbəmizin rəmzi, sülhün rəmzidir. Şuşa bəşəri cinayətə qarşı heç vəchlə, heç bir zaman tarixin aşınmalarına məruz qalmayacaq bir görk qalasıdır. Şuşaya gedən yol – Zəfər Yolu qəhrəman oğullarımızın Vətən eşqi, milli heysiyyət ilə vuran qan damarlarından keçib, müzəffər Ali Baş Komandanımızın nəbzi ilə döyünüb. Şuşa iki qardaş ölkə arasında münasibətləri müttəfiqlik səviyyəsinə qaldıran Bəyannamənin imzalandığı məkan kimi siyasət mərkəzinə çevrilib. Bu gün isə Qlobal Media Forumu da daxil olmaqla çoxsaylı möhtəşəm beynəlxalq tədbirləri ilə siyasi-diplomatik şüur mərkəzinə, beynəlxalq informasiya mübadiləsi məkanına çevrilməkdədir. Burada Qarabağ arzulu Ümummilli Liderimizin, Zəfər Yolunun yolçuları olan şəhidlərimizin ruhuna ən böyük ehtiram dəməti olaraq Azərbaycanı daha böyük qələbələrə, zirvələrə yüksəldəcək diplomatik Zəfər Yolunun növbəti cığırları açılıb. Və bu uğurları gördükdə, cənab Prezident, xalq da sizinlə birgə köksü qürurla qabararaq deyir:* ***“Xoşbəxtlik, bax, budur”.*** *Xoşbəxtliyə aparan Zəfər Yolumuz açıq olsun.*

✍ **Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru***

## Kənd təsərrüfatı naziri Naxçıvanda vətəndaşlarla görüşəcək

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov avqustun 11-i saat $09^{00}$-da Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun inzibati binasında (ünvan: Naxçıvan şəhəri, Xətai məhəlləsi) Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşlarla görüşəcək.

Nazirlikdən bildirilib ki, qəbul zamanı vətəndaşların Kənd Təsərrüfatı Nazirliyinin səlahiyyət dairəsinə aid məsələlərlə bağlı müraciətləri cavablandırılacaq, müraciətlərdə əksini tapan məsələlərin həlli ilə əlaqədar tədbirlər görüləcək. Vətəndaş qəbulunda iştirak etmək istəyənlər Kənd Təsərrüfatı Nazirliyinin “Çağrı Mərkəzi” *(1652) və ya +99460 5966962* nömrəsinə zəng etməklə qeydiyyatdan keçə bilərlər.

Qəbula gələn vətəndaşlar əvvəlcədən qeydiyyatdan keçməli və şəxsiyyətlərini təsdiq edən sənədləri özləri ilə gətirməlidirlər.

**Xəbərlər şöbəsi**

## Universitetlər arasında Tibb sahəsi üzrə gələcək perspektivlər müzakirə edilib



Naxçıvan Dövlət Universitetində onlayn keçirilən görüşdə rektor, dosent Elbrus İsayev və Türkiyənin nüfuzlu ali təhsil müəssisələrindən olan İstanbul Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl və Qazi Universitetinin rektoru Musa Yıldız ilə universitetlər arasında tibb sahəsi üzrə yaranan sıx əlaqələr, müəllim-tələbə mübadiləsi, təcrübə məşğələlərini yenidən gündəmə gətiriblər.

Görüş zamanı tibb sahəsində aktual problemlər və onların həlli yolları, təhsil proqramlarının keyfiyyətinin artırılması, tədqiqat layihələri və akademik əməkdaşlıq imkanları kimi müxtəlif məsələlər müzakirə olunub.

Elbrus İsayev Canan Aykut Bingölə təcrübə prosesində Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələrinə göstərdikləri dəstəyə görə təşəkkürünü bildirib. İstanbul Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl də tələbə və elmi işçilərin tibb sahəsində qarşılıqlı faydalı işlərə imza atmaları üçün əməkdaşlığın önəmini vurğulayıb.

Qazi Universitetində tibbi təhsil və tədqiqat proseslərində iştirak edən müəllim və tələbələrə tərəfdaşlıq və dəstəyə görə təşəkkürünü ifadə edən rektor bu əməkdaşlığın öyrənmə mühitini zənginləşdirdiyini vurğulayıb. Musa Yıldız isə görüşdə təcrübə mübadiləsi, elmi layihələr və tibb sahəsində əməkdaşlığın gələcəkdəki inkişafına dair nəzərlərini paylaşıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Hüquqşünas vəzifələrinə işə qəbulla bağlı müsabiqə başa çatıb

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində vakant hüquqşünas vəzifələrinə işə qəbulla bağlı birbaşa müsahibə yolu ilə keçirilən müsabiqə başa çatıb. Müsahibə mərhələsini müvəffəqiyyətlə keçən namizədlər vergi orqanlarının kadr ehtiyatına daxil edilib. Uğur qazanan namizədlər kadr ehtiyat bazasından mütəmadi qaydada vakant vəzifələrə təyin olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 8 noyabr 2020-ci il tarixindən bu gün artıq 1000 gün keçir. Nəsillərimizin hərb tarixindən ilhamlanan Azərbaycan Ordusu qəhrəmanlıq salnaməmizdə yeni səhifə açdı. Ölkə başçısının qətiyyətli mövqeyi, ordumuzun gücü, həmçinin ordu-xalq-iqtidar birliyi nəticəsində əldə olunan bu qələbə Azərbaycan tarixində unudulmaz bir hadisə kimi gələcək nəsillər tərəfindən daim xatırlanacaqdır. Artıq dünyanın qüdrətli dövlətlərinin ali hərbi məktəblərində bu möhtəşəm qələbənin necə əldə edilməsi təcrübəsi öyrənilir. Tarixi ədaləti bərpa etmək baxımından əhəmiyyətli olan şanlı qələbəmiz dünya üçün də böyük bir dərslərlə dolu bir hadisədir. Bu müharibə, eyni zamanda beynəlxalq hüquqa və onun əsas prinsiplərinə hörmət və sülh prosesinin vacibliyinin vurğulanması baxımından əhəmiyyətlidir.*

# Müharibədən sülh müqaviləsinə: *Şanlı Zəfərimizin 1000-ci günü*




### *Yenidənqurma prosesi uğurla davam edir*

30 ilə yaxın müddətdə işğalda olan ərazilərin düşməndən azad edilməsi nəticəsində bütün dünya birliyi işğalçıların ölkəmizdə törətdiyi digər beynəlxalq cinayətlərin şahidi oldu. Qarabağda təkcə insanlara qarşı cinayət törədilməmişdi, cinayətin qurbanları şəhərlər, o cümlədən ekologiya olmuşdu. Füzuli şəhəri işğaldan azad olunduqdan sonra bayrağımızı dalğalandırmaq üçün bir dənə belə binanın olmaması, həmçinin xarici mütəxəssislər tərəfindən "Qafqazın Xirosiması" adlanan Ağdam şəhərini görmək bütün bunların xalqımıza qarşı törədilən ən ağır cinayət olmasını özündə ehtiva edir.

Ölkə başçısı cənab İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında işğaldan azad edilən ərazilərdə infrastruktur layihələri icra olunur, yeni yollar çəkilir, hava limanları istifadəyə verilir, eyni zamanda mənfur düşmənlərin illərlə "təhqir etdiyi" tarixi, mədəni, dini irsimiz bu gün ən yüksək səviyyədə bərpa olunur. Tezliklə öz doğma torpaqlarına qayıdacaq insanlar üçün ən müasir şərait yaradılır.

Bu gün Prezident cənab İlham Əliyevin birbaşa təşəbbüsü və nəzarəti ilə işğaldan azad olunmuş ərazilər "yaşıl enerji" zonasına çevrilir. Belə ki, Şərqi Zəngəzur və Qarabağ bölgəsində ərazilərin bərpa edilməsi və yenidən qurulması ilə yanaşı, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası həyata keçirilir.

Qarabağda və ətraf bölgələrdə aparılan yenidənqurma işləri, Azərbaycanın inkişaf perspektivlərini daha da gücləndirəcəkdir. Bölgədə aparılan yenidənqurma işləri, sahələr arasında daha yaxşı kommunikasiya və ticarət imkanları yaratmağa imkan verəcək. Bu, bölgədəki iqtisadiyyatın dərinləşdirilməsinə və regionun ümumi potensialını artırmağa kömək edəcək. Xüsusilə turizm, ənənəvi sənətkarlıq və ərazinin təbii gözəllikləri, xüsusilə dağçılıq və qayalıq turizmi bölgəyə gələn turistlərin marağını çəkəcəkdir.

Qayıdış prosesinin həyata keçirildiyi bölgələrin yenidən qurulması, xüsusilə məktəb və sağlamlıq mərkəzlərinin tikintisi, sağlam infrastruktur və kommunal xidmətlərin yaradılması, insanların daha yaxşı təhsil və sağlamlıq imkanlarından yararlanmasını təmin edəcəkdir.

Bu gün Qarabağda və ətraf ərazilərdə aparılan yenidənqurma işləri ölkəmizin inkişaf perspektivlərini daha da genişləndirir, Azərbaycanı beynəlxalq arenada daha güclü və nüfuzlu etmək imkanı yaradır. Bu, eyni zamanda Qarabağın bərpası və yenidən qurulması prosesində iştirak edən bütün tərəfdaş ölkələr üçün də tərəfdaşlığın və sülhün bərqərar edilməsi üçün böyük bir imkan və səy dairəsidir. Bu proses Azərbaycanın sosial, iqtisadi və siyasi inkişafında əsaslı bir mərhələni təşkil edir. Bütün bu səbəblər işığında Qarabağda aparılan yenidənqurma işləri Azərbaycanın inkişaf perspektivləri və regional əməkdaşlıq üçün müsbət bir hadisədir.

### *Böyük Qayıdışın başlanğıcı...*

Vətən müharibəsindən keçən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində dövlətimiz tərəfindən mühüm işlər görülmüşdür. Məcburi köçkünlərin beynəlxalq hüququn prinsiplərinə əsasən öz doğma yurdlarına könüllü, təhlükəsiz qayıdışının və doğma yurdlarında müasir standartlara uyğun inşa edilmiş, zəruri sosial-texniki infrastrukturla təchiz olunmuş mənzillərlə təmini dövlət siyasətinin prioritet istiqamətləridir.

Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Bu prioritetlərə söykənən Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" hazırlanmışdır. Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

### *Sülh müqaviləsinin şərtləri aydın və dəqiqdir!*

Müharibədən sonra ən çox müzakirə edilən məsələlərdən biri Azərbaycan-Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiya xətlərinin müəyyənləşdirilməsi və yekun sülh müqaviləsinin imzalanmasıdır. Ən yüksək tribunalarda və müxtəlif səviyyəli görüşlərdə ölkəmiz tərəfindən "Ermənistanla sülh müqaviləsi imzalamağa hazırıq" bəyanatları verilir. Əlbəttə ki, ölkəmizin bu çağırışları sülhməramlı, xoşniyyətli çağırışlardır. Ancaq Ermənistanın müxtəlif dairələrində olan revanşist meyilli qüvvələr bu çağırışlara qulaq asmaq istəmir. Ermənistan tərəfi, həmçinin müxtəlif revanşist qüvvələr hələ də başa düşmürlər ki, onlar törətdikləri sülhə müdaxilə təxribatları ilə heç nəyə nail ola bilməyəcəklər. Azərbaycan Ordusu bu gün 3 il bundan əvvəlki ordudan daha güclüdür. Ona görə bölgədə yaranan yeni reallıqlarla barışmalı, sülh danışıqlarına mane olmamalı, Azərbaycanın sülh çağırışına qarşılıq verməlidir. Sülh müqaviləsinin şərtləri isə açıq və dəqiqdir: ölkəmizin ərazi bütövlüyünü beynəlxalq səviyyədə tanımalı, nə olursa-olsun, Zəngəzur dəhlizi açılmalıdır. Ermənistan üçün dalandan yeganə çıxış yolu budur.

### *Biz doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq*

Bu torpaqlar bizim əcdadlarımızın məskəni, zəngin mədəniyyətimizin paytaxtıdır. Gözəl təbiəti, çayları və məşhur dağları olan bu torpaqlar, bizi bir-birimizə daha da yaxınlaşdırır. Bu gün bu ərazilər təhsil-texnologiya-mədəniyyət – innovasiya vəhdəti ilə birlikdə inkişaf edir.

Bu gün qürur mənbəyimiz – üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda – Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalanır. Bu Tarixi Qələbənin qazanılmasında müzəffər və qəhrəman Azərbaycan əsgər və zabitlərinin əvəzsiz rolu danılmazdır. Ona görə də bu gün bütün Azərbaycan xalqı bizi Qarabağımıza qovuşduran insanları və bu torpaq uğrunda həlak olmuş bütün şəhidlərimizi həmişə minnətdarlıq hissi ilə xatırlayacaq.

***Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!***

**Əziz QASIMOV**
***Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi, Prezident mükafatçısı***

## *2023-cü il "Heydər Əliyev İli"dir*

# Dahi rəhbər həm də musiqi mədəniyyətimizin hamisi idi



*Azərbaycanın milli və professional musiqisi uzun bir yol keçib. Ulu Öndərimiz Heydər Əliyev musiqimizi çox sevir, ölkəmizə hər iki rəhbərliyi dövründə bu sahənin inkişafına böyük qayğı göstərirdi. Çünki O, çox yaxşı bilirdi ki, bir xalqı digər xalqlardan fərqləndirən əsas amillərdən biri həmin xalqın mədəniyyəti və musiqisidir. Ümummilli Liderin misilsiz xidmətləri sayəsində Azərbaycan musiqisi əsl yüksəliş dövrünü yaşamışdır. Bu dövr Azərbaycan incəsənəti və musiqisinin "Qızıl dövrü" adlanır.*

Hər bir xalq kimi, Azərbaycan xalqının da musiqisini ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda tanıdan musiqiçiləri vardır. Ulu Öndər hər zaman bu şəxsiyyətlərin qayğısına qalmışdır. O, Azərbaycan musiqi mədəniyyətinin yaradıcıları olan bəstəkarlardan Üzeyir Hacıbəyli, Qara Qarayev, Niyazi, Fikrət Əmirov, müğənnilərdən Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Müslüm Maqomayev, Rəşid Behbudov, Bülbül və başqalarının sənətinə yüksək qiymət vermişdir.

Çünki O, mədəniyyətimizin qoruyucusu, himayədarı idi. Məşhur musiqiçi Mstislav Rostropoviçin Bakıya dəvət olunması, Azərbaycan Dövlət Akademik Filarmoniyasının bərpası, Bakıda Üzeyir Hacıbəylinin, Bülbülün xatirəsinə muzeylərin açılması məhz Ulu Öndərin təşəbbüsü ilə olmuşdur. Dahi şəxsiyyət səhnə əsərlərinin tamaşasında, premyerasında yaxından iştirak edir, heyət ilə görüşür, onlara xoş sözlər deyirdi. Həmçinin Azərbaycan musiqisinin beynəlxalq arenaya çatdırılması da məhz dahi şəxsiyyətin adı ilə bağlıdır. O dövrdə sənət adamlarının zəhməti yüksək dəyərləndirilir, onlara fəxri adlar, orden və medallar verilirdi. Onu da xüsusi vurğulayaq ki, böyük Azərbaycan bəstəkarları Qara Qarayevin, Niyazinin, Fikrət Əmirovun, SSRİ-nin ən böyük dövlət təltifi olan "Sosialist Əməyi Qəhrəmanı" fəxri adına layiq görülməsi məhz dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Bu sırada bəstəkar, müğənni və musiqişünaslarımıza – Tofiq Quliyevə, Süleyman Ələsgərova, Ramiz Mirişliyə və onlarla belə sənət adamına Prezident təqaüdünün verilməsi Ulu Öndərin bu sahədə çalışanlara davamlı qayğısının bariz təzahürü kimi dəyərləndirilməlidir. Bəstəkarlarımız da Ümummilli Liderimizə böyük ehtiram göstərirdilər. Ulu Öndərimizə həsr olunmuş Cövdət Hacıyevin 8 saylı, Arif Məlikovun "Əbədiyyət" adlı simfoniyaları, Vasif Adıgözəlovun "Azərbaycan" kantatası, Ramiz Mirişlinin "Məşəl kimi yanan ürək", Sərdar Fərəcovun "Böyük vətəndaş haqqında oda"sı, Vasif Allahverdiyevin "Ömür yolu" simfonik poeması və digər əsərlər bu gün də musiqi fondumuzun qiymətli nümunələridir.

Onun ən çox sevdiyi sənətkar dünya şöhrətli müğənni, SSRİ Xalq artisti Rəşid Behbudov idi. Dahi rəhbər onu "nadir insan və nadir şəxsiyyət" adlandırırdı. O, Cahangir Cahangirovun "Alagöz" mahnısını Rəşid Behbudovun repertuarında çox sevirdi və söyləyirdi: ***"XX əsrdə Azərbaycan mədəniyyətinin inkişaf etməsində Rəşid Behbudovun nə qədər böyük xidmətləri olduğu zaman keçdikcə daha da dərindən dərk olunacaqdır".***

Qədim diyarımız Naxçıvanda da mədəniyyətin, musiqinin, incəsənətin inkişafına Ulu Öndər həmişə qayğı ilə yanaşırdı. Naxçıvan dünya elminə, ədəbiyyatına dahilər bəxş etməklə yanaşı, həm də musiqiçilər diyarı kimi tanınıb, zəngin mədəniyyət beşiyi sayılıb. Ulu Öndər Naxçıvan mədəniyyətinə hər zaman qayğı göstərərək inkişafı üçün böyük işlər görmüşdür. Naxçıvanda ixtisaslı musiqiçilərin, istedadlı gənclərin yetişməsi, musiqi təhsilinə cəlb olunması, müxtəlif milli musiqi alətlərinin öyrənilməsi, xalq mahnılarının yaşadılması, dünya və klassik bəstəkarların əsərlərinin öyrənilməsi üçün Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci il aprelin 28-də Naxçıvanda yeni təhsil ocağı – orta ixtisas musiqi məktəbi yaradılmışdır. Bununla Naxçıvanın mədəni həyatında yeni bir dövr başlanmış, musiqi təhsili almaq istəyən gənclərə yol açılmışdır. Bu gün Naxçıvan Musiqi Kolleci kimi fəaliyyətini davam etdirən həmin məktəbin yetirmələrinin səsi ölkəmizin müxtəlif musiqi kollektivlərindən eşidilir.

Ulu Öndərin ölkəmizdə hakimiyyətdə olduğu bu illərdə doğma yurdun musiqi tarixində daha bir hadisə baş verdi. Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvan Dövlət Filarmoniyası fəaliyyətə başladı. Filarmoniyanın nəzdində fəaliyyət göstərən Xalq Çalğı Alətləri Orkestri, Mahnı və Rəqs Ansamblı, İnstrumental Ansambl və digər musiqi qrupları muxtar respublikada musiqi mədəniyyətinin inkişafına töhfələr verir, gənc musiqiçi kadrların yetişməsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar. Onu da qeyd edək ki, bu və ya digər musiqi kollektivləri muxtar respublikamızla yanaşı, ölkəmizin digər rayonlarına, həmçinin yaxın xarici ölkələrə qastrol səfərlərinə gedərək Azərbaycan musiqisini təbliğ edirlər. Naxçıvanda yaradılan digər qurumlardan biri də Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatıdır. Bu yaradıcılıq ocağının fəaliyyətə başlaması da məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Naxçıvanda yaşayıb-yaradan musiqiçiləri öz ətrafında birləşdirən təşkilat hərtərəfli dövlət qayğısı əhatəsindədir. Təşkilatın sıralarına gənclərin qəbuluna üstünlük verilir.

Naxçıvanda ali təhsil ocağı Naxçıvan Dövlət Universitetinin də yaranması birbaşa Ulu Öndərin təşəbbüsüdür. Bu universitetin inkişafında Heydər Əliyevin əvəzsiz xidmətləri vardır. O, universitetin 25 illik yubileyində iştirak edərək müəllim və tələbə heyəti ilə görüşmüş, lazımi qayğını göstərmişdir. Bu, ali təhsil ocağının tarixində ən parlaq səhifə hesab olunur. Naxçıvan Dövlət Universitetinin nəzdində Musiqi, Təsviri sənət kafedraları yaradılmışdır. 1996-cı ildə isə həmin bazanın əsasında İncəsənət fakültəsi açılmış, fakültədə musiqişünaslıq, bəstəkarlıq, dirijorluq, simli və nəfəs alətləri, musiqi təhsili, təsviri incəsənət ixtisasları üzrə mütəxəssislər yetişdirilməyə başlanılmışdır. Fakültədə naxçıvanlı gənc musiqiçilərlə yanaşı, ölkəmizin digər bölgələrindən gəlmiş musiqisevərlər də təhsil alır. Bu fakültədə də fəaliyyət göstərən incəsənət xadimləri diqqət və qayğı əhatəsindədir. Onların bəzilərinə Prezident təqaüdü verilmiş, orden və medallar, fəxri adlarla təltif olunmuşlar. Bu sənət adamlarının sırasında Kamal Əhmədov, Səidə Məmmədova, Çingiz Axundov və başqalarının adlarını çəkmək olar.

Ulu Öndər Azərbaycan tarixində silinməz izlər buraxmış dahi şəxsiyyətdir. Onun amalı hər zaman Azərbaycan və Azərbaycan xalqının rifahını qorumaq, mədəniyyətini, incəsənətini inkişaf etdirmək, Azərbaycanın milli və professional musiqisini dünyaya tanıtmaq olmuşdur.

**Lətafət HƏSƏNOVA**
***Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Musiqişünaslıq ixtisası üzrə III kurs tələbəsi***

# Uşaqlar gəncliyimiz, gənclik isə gələcəyimizin təminatıdır

*Uşaqlar hər evin, hər ailənin bəzəyi, yaraşığı, hər bir dövlətin, millətin sabahı, gələcəyidirlər. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması istiqamətində aparılan dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərimiz daim uşaqlara böyük qayğı və sevgi ilə yanaşır, onların lazımi səviyyədə yetişməsi, təhsil alması üçün məqsədyönlü tədbirlər həyata keçirirdi. Gələcəyimizi etibar edəcəyimiz uşaqların təlim-tərbiyəsi ilə məşğul olan müəssisələrin yaradılmasını diqqət mərkəzində saxlayırdı.*



***“Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə millətimizin, dövlətimizin taleyi bundan asılı olacaq. Mən həyatımın bu gününü, gələcəyini, xoşbəxtliyini, səadətini məhz uşaqlara diqqət və qayğıda görürəm”***, – deyən görkəmli dövlət xadiminin müəyyən etdiyi vəzifələr bu gün muxtar respublikamızda uğurla həyata keçirilir, uşaqların əlverişli sosial mühitdə böyüməsi diqqətdə saxlanılır, təlim-tərbiyəsinin daha da təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Müasir uşaq bağçaları istifadəyə verilir, uşaqların fiziki və əqli inkişafı, istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtlarının və tərbiyəsinin düzgün təşkili sahəsində ardıcıl tədbirlər görülür. İstifadəyə verilən uşaq bağçalarında uşaqlar yaxşı şəraitdə böyüyür, tərbiyə alır və məktəb həyatına hazırlaşırlar.





Bu gün yolumuz Naxçıvanın ilk özəl məktəbəqədər təlim-tərbiyə ocağı olan “Mehriban” uşaq erkən inkişaf-tədris mərkəzinədir. Buraya qədəm qoyduğumuz andan mərkəzdəki səmimi atmosfer bizdə xoş təəssürat yaratdı. Mərkəzin müdiri ***Günay Nuriyeva*** bizi mərkəz ilə tanış edir. İki mərtəbədən ibarət müasir arxitektura üslubunda inşa edilmiş binada üçaylıq körpədən 6 yaşına kimi uşaqlar tərbiyə olunur. Günay xanım bildirir ki, mərkəzdə üç bölmə fəaliyyət göstərir. Azərbaycan, rus və ingilisdilli bölmələrdə uşaqlara bu ixtisaslar üzrə mütəxəssis müəllimlər təlim keçir. Onu da vurğulayır ki, mərkəz işini digər təhsil müəssisələri kimi, islahatlara uyğun yeni metodlar üzərində qurub. Uşaqlar arasında diqqət, hafizə, düşüncə, riyazi təfəkkür, nitqin inkişafı ilə bağlı testlər aparılır, onların dərketmə bacarığının yüksəlməsi daim diqqət mərkəzində saxlanılır. Balacalara rəsm, riyaziyyat, ətraf mühitlə tanışlıq, musiqi kimi fənlərin ilkin əsasları öyrədilir. Onu da öyrənirik ki, bu gün uşaqların vaxtlı-vaxtında ekoloji təmiz yerli məhsullarla qidalanmaları qayğısına da qalınır, istirahət rejiminə əməl olunmasına xüsusi diqqət yetirilir. Çalışırlar ki, uşaqlar üçün yeməklər yerli orqanik məhsullardan hazırlansın. Günay Nuriyeva onu da deyir ki, mərkəzin həyəti də olmaqla hər tərəf kameralarla müşahidə olunur. Valideynlər onlayn qaydada evdən öz körpələrini gün ərzində izləmək imkanına malikdirlər.



Burada körpələrimizə biliklər öyrədən ***Xədicə İbrahimova*** ibtidai sinif müəllimidir. Söhbət zamanı dedi ki, uşaqların dünyaya pəncərəsi sayılan bağçalarda bu gün onların hərtərəfli böyüməsi, təlim-tərbiyəsinin günün tələbləri səviyyəsində qurulması və sağlamlıqlarının qorunması məqsədilə lazımi şərait yaradılıb. İstifadəyə verilən uşaq bağçaları, açığını deyim ki, öz müasir görünüşü və təminatı ilə bizim əvvəllər oxuduğumuz ali məktəblərdən də öndədir. Bütün bunların bir səbəbi isə Ulu Öndərimizin yolunun muxtar respublikamızda da uğurla davam etdirilməsidir.

Öyrənirik ki, burada uşaqlara Vətən haqqında ilkin biliklərin öyrədilməsi diqqətdə saxlanılır, onlara dövlət atributlarımız haqqında məlumat verilir, uşaqlar Azərbaycan xəritəsi ilə tanış olurlar.

Artıq iş günü başa çatmaqda olduğundan övladlarını götürməyə gələn bir neçə valideynlə də rastlaşıb söhbət edə bildik. Onlar da burada yaradılan şəraitdən ürəkdolusu söhbət açaraq övladlarını məmnuniyyətlə bu məktəbəqədər tərbiyə ocağına etibar etdiklərini söylədilər. Qeyd etdilər ki, belə mərkəzlər işləyən valideynlərin yaxın köməkçisidir. Bu gün onlar çətinlik çəkmədən müxtəlif sahələrdə fəaliyyət göstərirlər. Muxtar respublikada valideynləri işləyən, xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən və sağlamlıq imkanları məhdud uşaqların bağçalara üz tutması xüsusilə qeyd olunmalıdır. Bu da sağlamlıq imkanları məhdud uşaqların erkən yaşlarında cəmiyyətə inteqrasiyasını təmin edir, onların ailələrinə mənəvi dayaq olur.

Prezident cənab İlham Əliyevin yaxın günlərdə təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda Naxçıvanda yeni özəl təhsil müəssisələrinin də açılması nəzərdə tutulub. Ümid edirik ki, yaxın vaxtlarda belə təhsil müəssisələrinin sayı artacaq, balaca fidanlarımız həmin müəssisələrə cəlb ediləcəklər.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Naxçıvanlı 2 müəllim “Təhsildə inkişaf və innovasiyalar üzrə VII qrant müsabiqəsi”nin qalibi olub

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsis edilən və hər il keçirilən “Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi”nin builki nəticələri açıqlanıb. Müsabiqə “Ümumtəhsil müəssisələri” kateqoriyası və fərdi kateqoriya üzrə, “Təhsilalanlar arasında ictimai fəallığın dəstəklənməsi”, “Məktəb nüfuzunun artırılması və məktəb icmasının inkişaf etdirilməsi”, “Reytinqli Kütləvi Açıq Onlayn Kursların (MOOCs) Azərbaycan dilinə tərcüməsi, dublyajı, istifadəyə verilməsi və ya yerli mütəxəssislər tərəfindən açıq onlayn kursların hazırlanaraq həmin platformalarda yerləşdirilməsinin təmin olunması” nominasiyaları üzrə keçirilib və müsabiqəyə, ümumilikdə, 1407 layihə təqdim edilib. Daxil olan layihələrin 279-u ümumi təhsil müəssisələrinin, 1128-i isə təhsilverənlərin fərdi layihələri olub. Müsabiqəyə təqdim edilən layihələr əvvəlcə texniki ekspertizadan keçirilib və nəticədə, 1398 layihə məzmun ekspertizası mərhələsinə buraxılıb. Bu mərhələdə layihələr ekspert qrupu tərəfindən 100 ballıq şkala ilə 9 meyar əsasında qiymətləndirilib və ən yüksək bal toplayan 225 layihə qrant qazanıb.




“Təhsildə inkişaf və innovasiyalar üzrə VII qrant müsabiqəsi”nə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərindən 41 müəllim qatılıb. Onlardan Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin direktoru Samirə Abdullayeva MOC.org “Uğurun öyrənilməsi kursu” layihəsi ilə “Ümumtəhsil müəssisələri” kateqoriyası üzrə, Şərur rayon Kürkənd tam orta məktəbinin müəllimi Günay Orucova isə “Mobil tətbiq vasitəsilə riyaziyyatı asanlıqla öyrənək” layihəsi ilə fərdi kateqoriyada qalib olub.

Məlumat üçün bildirək ki, Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin direktoru Samirə Abdullayevanın layihəsinin əsas məqsədi MOC.org platformasının “Uğurun öyrənilməsi” kursunu Azərbaycan dilinə uyğunlaşdırmaqla şagirdlərin uğur qazanmalarına kömək etməkdir. MOC.org platforması gənclər üçün müxtəlif təlim paketləri təqdim edən beynəlxalq təhsil proqramıdır.

Şərur rayon Kürkənd tam orta məktəbinin müəllimi Günay Orucovanın “Mobil tətbiq vasitəsilə riyaziyyatı asanlıqla öyrənək” layihəsində isə məqsəd şagirdlərin mobil tətbiqlərin köməyi ilə asan üsulla riyaziyyat fənnini sevdirmək, riyazi bacarıqları formalaşdırmaq və bu fənnə maraq oyatmaq üçün müxtəlif beynəlxalq müsabiqələrdə iştiraklarını təmin etməkdir. Layihədə istifadə olunan tətbiq dünyanın ən populyar riyaziyyat öyrənmə platformasıdır və 10 milyon istifadəçisi ilə dünyanın ən çox yüklənən təhsil proqramıdır.

Qeyd edək ki, “Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi”nin keçirilməsində başlıca məqsəd prioritet istiqamətlər üzrə təhsilin inkişafına xidmət edən ictimai iştirakçılığın təmin edilməsi, təhsilin inkişafı üzrə ictimai təşəbbüslərin dəstəklənməsidir. Qrant müsabiqəsi üzrə prioritet hesab olunan istiqamətlər müəyyən edilərkən nəzərə alınan ən önəmli faktor həmin istiqamətlərdə həyata keçiriləcək layihənin məktəb mühitinə və pedaqoji işçilərin inkişafına müsbət təsir göstərə bilməsidir.

Biz də müasibiqədə qalib olan müəllimləri təbrik edir, onlara uğurlar arzulayırıq.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## Elan

“Səyyar Dəstə Açıq Səhmdar Cəmiyyəti”nin ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyində aşağıdakı məsələlər müzakirə ediləcək:

*1. Təşkilatın hüquqi formasının dəyişdirilməsi və qiymətli kağızların dövriyyədən çıxarılması*
*2. Təşkilatın ilk fəaliyyəti*
*3. Digər məsələlər.*

Yığıncaq sentyabr ayının 5-də keçiriləcək.

*Ailə təsərrüfatlarımız*

## Yay aylarının sevilən meyvəsi – *şaftalı*

*Şaftalı yay aylarının sevimli meyvələrindən biridir. Bu gün bazarlarda sıx rast gəldiyimiz şaftalını muxtar respublikamızda yetişdirən təsərrüfatçılar kifayət qədərdir. Xüsusilə Şərur, Ordubad bölgələrində becərilən bu meyvə şirinliyi, tamı ilə damaqlarda xoş bir dad buraxır.*

XVIII əsrdə Hollandiya səyyahı Lebuyun yazırdı ki, Ordubadın hər yeri zahiri görünüşü ilə olduqca gözəl və diqqətəlayiqdir. Burada olan bağların meyvəsi gözəl, ətirli, lətif və şirindir. Qədim zamanlardan bağlar diyarı kimi tanınan Ordubad rayonu meyvəçiliyin inkişaf etdiyi bölgələrimizdən biridir. Bu diyarın meyvələri özünəməxsus dadı, ləzzəti ilə seçilir. Ordubad əriyi, şaftalısı, limonu, heyvası və cəvizi muxtar respublikadan kənarda adla tanınır.

Ordubadın özünəməxsus şaftalı sortları vardır ki, onlar bir vaxtlar xarici ölkələrdə təşkil edilmiş meyvəçilik sərgilərində öz layiqli yerini almış, Ordubada səyahət edən ingilis səyyahı Antoni Cenkinson yazmışdı: “Mən Ordubadda gözəl bağlar, ətirli, iri şaftalı gördüm ki, buna heç yerdə rast gəlməmişəm. Ordubad gözəl meyvə bağları ilə diqqəti cəlb edir”.

Rayonda 31 illik bağçılıq təcrübəsinə malik olan ***Rahim Kərimov*** bir çox meyvələrlə yanaşı, təsərrüfatında şaftalı da əkib-becərir. Onun dediklərindən: – Ordubadın meyvələri dadına, görünüşünə görə şöhrət qazanıb. Heyva, şaftalı, ərik, limon dünyanın heç bir yerində Ordubaddakı kimi gözəl, dadlı, ətirli, tamlı olmur. Ordubadın meyvə sortları sovet dövründə Qubaya, Xaçmaza və digər rayonlara yayılmışdı. Hazırda bir hektara qədər meyvə bağına qulluq edirəm. Məqsədim Ordubadın meyvəçiliyini inkişaf etdirməkdir. İlk meyvə bağımı 1992-ci ildə salmışam. 1992-2022-ci illər arasında Abşeronda 50-yə qədər, müxtəlif regionlarda 30-40 bağ salmışam. Bu ilin son bağını Ağsuda 1000 ədəd ərik ağacı əkməklə salmışam.

“Meyvəçiliyə, bağbanlığa maraq məndə uşaqlıqdan yaranıb”, – deyən təcrübəli bağban ölkəmizdə yetişən bütün meyvələri becərdiyini qeyd edir: – Bunların içərisində alma, armud, heyva, yemişan, əzgil, xurma, şaftalı, ərik, gavalı, göyəm, alça, gilas, gilənar, tut, zoğal, iydə, innab, nar, əncir, fındıq, cəviz, şabalıd, püstə, badam, limon, mandarin portağal və digər meyvə, giləmeyvələrlə yanaşı, dekorativ ağaclar da vardır. Təqribən, meyvələrin 200-ə yaxın sortunu becərirəm. Şaftalının 20-25, əriyin 20-yə yaxın, üzümün 30-dan yuxarı sortunu becərib artırıram. Əsas məqsədim Azərbaycanın, Ordubadın qədim sortlarını itməyə qoymamaqdır.

“Bir neçə şaftalı sortu var ki, Vətəni Ordubaddır”, – deyən müsahibim qeyd edir ki, meyvəçiliklə bağlı kitablarda da şaftalı sortları xarici, Azərbaycan sortları olmaqla, iki yerə ayrılır. Azərbaycan sortları içində isə Ordubad sortları adla deyilir: – Bu gün bazarlarda olan şaftalıların əksəriyyəti Azərbaycan, eləcə də Ordubad sortlarıdır. Rayonda şaftalının ən məşhur sortu “salamı”dır. Bundan başqa, dənədən qopan hulu kəhrəba, ağ, sarı, qırmızı nazlı, zəfəranı, tərəlli, şərəlli, Ordubadi, alanai, qış və əncir güştüsü də becərilənlər sırasındadır.

Rahim Kərimov deyir ki, rayonda şaftalının mürəbbəsini, kompotunu, cemini, povidlosunu, qaxını hazırlayırlar. Həmçinin Ordubadda şaftalıdan alana, miyanpur hazırlanır ki, bu məhsullar özünəməxsus görünüşü, dadı ilə seçilir. Şaftalını qurudub içərisinə cəviz və digər quru meyvələr qoymaqla bu məhsulları əldə edirlər. Vitaminlərlə zəngin şaftalı və ondan hazırlanan məhsullar, əsasən, həzm sistemini dəstəkləyir, immuniteti gücləndirir və ürək üçün faydalıdır. Əldə etdiyi məhsulları daha çox hərbi hissələrə göndərdiyini deyən təcrübəli bağban ərsəyə gətirdiyi tingləri müəyyən vaxtlarda satışa çıxardığını da qeyd etdi.



Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” kənd təsərrüfatının inkişafı, məhsul istehsalının artırılmasında qarşıya mühüm vəzifələr qoyur. Bu sırada bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının müəyyənləşdirilməsi, onların brendləşdirilməsi, təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviqi diqqətdə saxlanılacaq, kənd təsərrüfatı məhsullarının emalı, o cümlədən meyvə qurularının istehsalı sahəsi dəstəklənəcək və ixrac imkanları genişləndiriləcəkdir. Orqanik məhsullar içərisində Ordubad meyvələri, şaftalı və ondan hazırlanan məhsullar da öz yerini alacaq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

### *İtmişdir*

Babək rayonunun Çeşməbasar kəndində yaşamış Əsgərov Sadiq Ələkbər oğluna məxsus JN-129$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 453